DOI: https://doi.org/10.36719/2706-6185/51/69-72

**Rəna Xəlilbəyli**
Azərbaycan Dillər Universiteti
https://orcid.org/0009-0005-6885-4496
mina.tagieva.1910@inbox.ru

# İngilis dilində fellərin zamanlarının dəyişilmə tendensiyasının öyrədilməsi metodikası

## Xülasə

İngilis dilində fellərin zamanlarının dəyişilmə tendensiyasının öyrədilməsi prosesində zaman qruplarını ardıcıl (Simple, Continuous, Perfect, Perfect Continuous), köməkçi fellər, şəkilçili infinitivlər və ya qaydasız fel formaları (V1, V2, V3) üzərində fokuslanmaq və o cümlədən konteksdə fellərdən istifadə praktikası aşılanmalıdır ki, tələbələr onların mənasını və formalaşmasını anlaya bilsinlər. Sistematik öyrədilmə metodunda fel zamanları ardıcıl öyrədilməlidir. Strukturun tələbə tərəfindən dərk edilməsində fellərin formalaşması prosesində köməkçi fellər (məsələn: do, be, have), şəkilçilərin əlavə edilməsi (məsələn: -ing Continuous zamanı üçün), üç fel formalarından (V1 – infinitiv, V2 – sadə keçmiş, V3 – feli sifət) istifadə edilməklə izah edilməlidir. İlk növbədə də qaydasız fellərin işlədilməsinə fokuslanmaq lazımdır. Praktik metodda yalnız fellərin qrammatik formalarına deyil, hər bir fel zamanının işlədildiyi situasiyalarda mənasını öyrətmək lazımdır. Kontekstual öyrətmə metodunda tələbələrə real və ya real vəziyyətlərə müvafiq hallarda fel zamanlarının işlədilməsi praktikası və məşqləri tədris edilir.

***Açar sözlər:*** *fel zamanları, zaman kateqoriyaları, köməkçi fellər, fel formaları, fel markerləri, feli sifət*

**Rana Khalilbayli**
Azerbaijan University of Languages
https://orcid.org/0009-0005-6885-4496
mina.tagieva.1910@inbox.ru

# Methodology for Teaching the Tendency of Verb Tenses Modification in English

## Abstract

In the process of teaching the tendency of verb tense changes in English, focus should be placed on tense groups in sequence (Simple, Continuous, Perfect, Perfect Continuous), auxiliary verbs, infinitives with suffixes, or irregular verb forms (V1, V2, V3). Additionally, practice in using verbs in context should be instilled so that students can understand both their meaning and their formation. In a systematic teaching method, verb tenses must be taught sequentially. For students to grasp the structure, the formation of tenses should be explained through auxiliary verbs (e.g., *do, be, have*), the addition of suffixes (e.g., *-ing* for Continuous tense), and the use of the three verb forms (V1 – infinitive, V2 – simple past, V3 – past participle). First and foremost, attention should be given to the use of irregular verbs. In a practical method, teaching should not only focus on the grammatical forms of verbs but also on the meaning of each tense in the situations where it is used. In the contextual teaching method, students are provided with practice and exercises in applying verb tenses in real or realistic situations.

***Keywords:*** *tense forms of the verb, tense categories, auxiliary verbs, verb forms, verb markers, participle*

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0) 

## Giriş

Yabançı dillərin öyrənilməsi prosesində öyrənilən dilin ana dilimizdən fərqli praktik və nəzəri aspektlərini anlamaqda müxtəlif çətinliklərlə qarşılaşırıq. İngilis dilinin tədrisinin müasir metodologiyasında vacib bir mövzu fel zamanlarının praktik təqdim edilmə üsullarıdır. Fel formalarının bu cür müxtəlifliyi və qeyri-xətti quruluşu fel strukturunun qrammatik öyrənilməsi baxımından ən vacib mövzulardan biridir. Bir qayda olaraq, qrammatik məna yalnız hərəkətin ifadəsi ilə deyil, onun halı, vəziyyəti, hiss və ya münasibətlərlə müəyyən edilir (Orazova & Meredova, 2024, pp. 83–86). Fel nitqin əhəmiyyətli və mürəkkəb bir hissəsi olub, prosesdəki konkret hərəkəti təyin edir. Bu əsasda feli digər nitq hissələrindən fərqləndirən cəhət hərəkətin qrammatik mənasını, yəni zamanla axan dinamik bir əlaməti ifadə etməsidir. İfadə olunan hərəkətin və ya hər hansı situasiyanın anlanılmaması ünsiyyətdə çətinliklərə və kontekst vəziyyətinin idarə olunmamasına səbəb olur. Fel digər nitq hissələrindən fərqli olaraq müxtəlif kateqoriyalar üzrə dəyişə bilir: şəxs, miqdar, zaman, hal, məlum və məchul növ. Bundan əlavə, felin şəxsiz formaları – the infinitive, Participle I, II, Gerund (Sürek, 2015, pp. 101–104). İngilis dilinin qrammatikasında problemlərdən biri müəyyən bir hərəkəti ifadə etmək üçün müvəqqəti formanın düzgün və yerində işlədilməsidir.

İngilis dilində 12 fel zaman formalarının öyrənilməsi mürəkkəb mövzu olaraq aktual məna kəsb etməkdədir. Bütün dünya dillərində fel zamanlarını fərqləndirən göstəricilər vardır. İngilis dilində fel zamanlarının təqdim edilməsi hərəkətin hansı zaman intervalında baş verməsi və ya baş verəcəyi kontekstindən əhəmiyyətlidir. Bu baxımdan fel zaman sistemi İngilis dilində mürəkkəb olub, həm tələbədə, hətta müəllimdə belə çaşqınlıq yarada bilər (Gunawan, 2022). Texniki olaraq zamanın müəyyən edilməsi – fel zaman formalarının dəyişməsini tapmaq və ya zamanın dəyişməsini ifadə edən felin forma dəyişikliyini aşkarlamaqdır. Belə texniki təyinata əsasən, İngilis dilində felin yalnız iki zamanını önə çəkə bilərik: indiki zaman (I eat) (Mən yeyirəm) və keçmiş zaman (I ate) (Mən yedim). Amma gələcək zaman və ya digər zaman formaları isə fel formasının dəyişməsi ilə deyil, müxtəlif üsullarla ifadə edilir; belə ki, will modal felinin əlavə edilməsi ilə: (I will eat) (Mən yeyəcəyəm) (Ade, 2018, pp. 110–112).

O ki qaldı aspektlərə, fel zamanlarının təyin edilməsi mövcud hadisənin təbiətini (müvəqqəti, davam edən, digər hadisələrlə əlaqəli olması və s.) ifadə etməsi hallarıdır. Bu nöqteyi-nəzərdən dörd aspekt əsas göstəricidir: the simple (I eat), the continuous (I am eating), the perfect (I have eaten), the perfect continuous (I have been eating). Present Continuous fel forması nəinki həmin anda baş verən hərəkəti, o cümlədən "son zamanlar" baş verən və ya uzun zaman davam edən hərəkətləri də ifadə edə bilər; məsələn: I am learning French. Bəzi fellər Present Continuous zaman formasında işlənmir: to see, to love, to like, to want, to wish, to know, to understand və s.

**Tədqiqat**

İngilis dilində fellər sisteminin öyrənilməsi tələbələr üçün çətin olmaqla yanaşı, tədris dönəmində onlar üçün fundamental tapşırıqlardan hesab edilir. Mürəkkəblik fel zamanlarının çoxluğu ilə deyil (Simple, Continuous, Perfect, Perfect Continuous), onların semantik çoxcəhətliliyi və funksional spesifikliyi ilə müəyyən edilir. Müəllimlər tərəfindən fel sisteminin öyrədilmə metodikasında qrammatik cəhətlə yanaşı (formalaşma tendensiyası), həmçinin kommunikativlik (kontekstdə istifadə etmə bacarığı) də nəzərə alınmalıdır (Ubaydullayeva, 2025, pp. 197–199). Müəllim dərs prosesində tələbələrdə felin zaman formaları haqqında fikir formalaşdırmalı, yazılı və şifahi nitqdə felin zaman formalarının yerində tanınması və istifadəsi bacarıqlarını inkişaf etdirməli, fel zamanlarının köməkçi fellər, suffikslər və üç fel formaları (V1, V2, V3) vasitəsilə düzgün tərtib edilməsini və o cümlədən tələbələri real kommunikativ situasiyalarda fel zamanlarının istifadəsinə alışdırmalıdır (Passov, 1991, pp. 20–23).

**Examples of verb tense markers**

- Present Simple V1 → every day, always, usually, often, sometimes, rarely, seldom, hardly ever, never
- Present Continuous → now, at the moment (to be + V-ing)
- Present Progressive → now, right now, at the moment, Look!, Listen!
- Present Perfect Continuous → since, for, how long (have/has + V-ing)

- Present Perfect → since, for, lately, recently, ever, never, today, not yet, just, already (have/has + V3)
- Past Perfect Continuous → when + for (had been + V-ing)
- Past Simple → yesterday, last week, last month, last year, in 2025 (V2 – (-ed))
- Past Continuous → at … o'clock yesterday, when she came in, from 4 till 7 yesterday, the whole evening (to be (was/were) + V-ing)

**Past Perfect:** before, by, when + already *(had + V3)*
**Past Progressive:** as, while, when
**Future Simple:** tomorrow, next week, in a few days *(will/shall + V1)*
**Future Continuous** — at … o'clock tomorrow *(will be + V-ing)*
**Future Perfect:** by … o'clock / next month / 2024 etc. *(will have + V3)*
**Future Perfect Continuous** — for + when *(will have been + V-ing)*

Müəllim təlim zamanı qarşısına qoyduğu məqsədlərə çatmaq üçün aşağıdakı nüansları önə çəkməlidir:

1. Tələbələri fel zamanlarının 4 əsas qrupundan ibarət klassifikasiyası ilə tanış etmək, siqnal markerlərin (now, already, yesterday, by the time və s.) istifadəsinə aksent etmək vacibdir (Azimov & Shchukin, 2020).
2. Tələbələr tərəfindən tədricən və ardıcıl olaraq felin zaman formalarına aid dərs materialının aktiv şəkildə mənimsənilməsinə diqqət ayırmaq (Simple → Continuous → Perfect → Perfect Continuous) önəmlidir. Bununla da tələbələrə fel zamanlarının müəyyən sistem əmələ gətirdiyini və məntiqi qarşılıqlı əlaqəyə malik olduğunu nümayiş etdirmək lazımdır.
3. Mürəkkəb aspektlərdə, əsasən qaydasız fellərin tətbiqində diqqətin konsentrasiyasını gücləndirmək.
4. Fellərin zamana görə dəyişməsini regulyar olaraq praktikada tətbiq etmək. Hər bir felin zaman forması mövcud hadisələr və ya situasiyalar fonunda öyrədilməlidir. Məsələn, Present Simple vərdişlər və gündəlik işlər, Present Continuous isə "burada və indi" üçün işlədilməlidir (Harmer, 2015).
5. Felin zaman formalarının ana dilindən ingilis dilinə və əksinə çevrilmələrində tələbələrdə tərcümə bacarıqlarını qüvvətləndirmək. Müqayisəli-tətbiqi metod vasitəsilə ingilis dilində fellərin daha çox differensial xarakterli olmasını, tələbələrin öz ana dilindən fərqli cəhətlərini qeyd etmək lazımdır. Bu zaman cədvəl, sxem, time-lines, diaqramlardan istifadə etmək anlamağı asanlaşdıra bilər.
6. V1, V2, V3 və köməkçi fellərin (do, be, will, have) işlənməsi, "zaman zənciri" formulundan istifadə *(I do — I am doing — I have done — I have been doing)* bilik-bacarıqları gücləndirən amillərdəndir (Swan, 2016).
7. Nitqin formalaşmasında praktik məşqlərin intensiv aparılması — müzakirələr, rol oyunları, müsahibələr, "felin zamanlar üzrə situasiya çevrilmələri", şifahi prezentasiyalar, mini-esselər, hər hansı hadisənin nağıl edilməsi və s. önəmlidir. Nitqin "kombinə olunmuş zamanlarla" ifadə edilməsi müəyyən çərçivədə mürəkkəbləşmiş tapşırıq olub, bu zaman tələbə, məsələn, həm gələcək planları, həm də keçmişdə topladığı bacarıqları haqqında söhbət açır (Thornbury, 2006).

Həmçinin, müəllim öz təlim prinsiplərini də irəli sürərək, onları bütün dərs prosesinə tətbiq etməlidir: **Sistematiklik prinsipi** — felin zaman formaları sadədən mürəkkəbə doğru mərhələli şəkildə, tələbənin öyrənmə həvəsinə xələl gəlmədən, onu yormadan aparılmalıdır. **Müəllim tərəfindən elmi əsaslandırma prinsipi** — izahat formaların semantikasını və funksiyalarını ortaya qoyaraq linqvistik bazaya istinad edərək həyata keçməlidir. **Əlçatanlıq prinsipi** — dərs vəsaitləri, materiallar tələbə səviyyəsinə uyğun olmalıdır. **Kontekstuallıq prinsipi** — hər bir fel zaman forması real situasiyalar və ya təlim-tədris modelində öyrənilməlidir (İsmet Öztürk, 2019). **Praktik istiqamət prinsipi** — diqqət yalnız qrammatik qaydalara deyil, həmçinin felin zaman formalarının nitqdə tətbiqinə yönəldilməlidir. Tələbələr praktik bacarıqlarını inkişaf etdirmək üçün cümlələri təsdiq, sual və inkar formalarda tərtib etməli, marker sözlərə və kontekstə diqqət yetirməli, hərəkətin digər hadisələr və ya zaman anları ilə uzlaşmasının olduğunu təhlil etməklə məşq etməlidir.

## Nəticə

İngilis dilində fellərin zamanlar üzrə dəyişilmə tendensiyasının öyrədilməsi metodikası qrammatikanın tədrisində əsas istiqamətlərdən biridir. İngilis dilində felin zamanlar üzrə dəyişmə sistemi ana dilindən fərqli və çoxcəhətli olduğu üçün fel zamanlarının qrammatik kateqoriyalarının tələbələr tərəfindən mənimsənilməsi də mürəkkəb bir prosesdir. Fel formalarının bir-birindən tədric olunmuş şəkildə deyil, zamanlar üzrə dəyişilməsini qarşılıqlı əlaqədə və dinamikada öyrənmək ingilis dilinin qrammatik qanunauyğunluqlarını daha dərindən anlamağa kömək edir. Fel formalarının ardıcıl işlədilməsi, müqayisəli-tətbiqi metodlar, vizualizasiya (fel zamanlarının xətti ardıcıllığı — time-lines, sxemlər, cədvəllər, infoqrafiklər, komikslər və s.), həmçinin kommunikativ tapşırıqların aktiv istifadəsi nəinki fel zamanlarının strukturu haqqında biliklərin formalaşmasına, həm də yazılı və şifahi nitqdə düzgün istifadə etmə bacarıqlarını inkişaf etdirəcəkdir (Bim, 2001, pp. 50–62). Beləliklə, tədris metodologiyası tələbələrə yalnız teoretik biliklər deyil, o cümlədən, nitqin bu və ya digər tərzdə təqdimatından, mümkün situasiyadan asılı olaraq qrammatik formanın çevik seçilməsində praktik vərdişlər aşılamalıdır. Tədris prosesində belə unikal yanaşma yüksək səviyyəli dil kompetensiyasını yaratmaqla yanaşı, kommunikativ kompetensiyanı da formalaşdırır ki, bu da müəllimin öyrətmə bacarığını tələbələr üçün daha effektiv edir.

## Ədəbiyyat

1. Ade, S. (2018). The influence of teaching tenses through group discussion method towards student's achievement in tenses mastery.
2. Azimov, E. G., & Shchukin, A. N. (2020). *Sovremennyy slovar' metodicheskikh terminov i ponyatiy.* IKAR.
3. Bim, I. L. (2001). *Teoriya i praktika obucheniya inostrannym yazykam.* Prosveshcheniye.
4. Gunawan, T. (2022). Metacognitive strategy implementation in teaching English tenses to college students: A classroom action research.
5. Harmer, J. (2015). *The practice of English language teaching.* Pearson Education.
6. İsmet, Ö. (2019). A function-first approach to verb tense usage in research article introductions in applied linguistics.
7. Orazova, C., & Meredova, G. (2024). Prepodavaniye vremennykh form glagola v angliyskom yazyke: Nekotoryye voprosy po metodike. *Mirovaya nauka, 9*(90).
8. Passov, Ye. I. (1991). *Kommunikativnyy metod obucheniya inostrannomu yazyku.* Prosveshcheniye.
9. Sürek, M. B. (2015). *Müasir ingilis dilində feli frazeoloji vahidlərin leksik-semantik xüsusiyyətləri.*
10. Swan, M. (2016). *Practical English usage.* Oxford University Press.
11. Thornbury, S. (2006). *How to teach grammar.* Pearson Education.
12. Ubaydullayeva, M. (2025). Leveraging interactive methods in teaching English verb tenses: A practical approach.

Daxil oldu: 30.04.2025
Qəbul edildi: 15.08.2025